AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ
P O L İ S A K A D E M İ Y A S I

ƏYANİ TƏHSİL

**Kafedra: "Cinayət prosesi"**

# M Ü H A Z İ R Ə

**MÖVZU № 4/1. "Cinayət təqibi üzrə icraatın aparılması və vurulmuş ziyanın ödənilməsi".**

**TƏRTİB ETDİ:** "Cinayət prosesi" kafedrasının rəisi,
polis polkovniki **Səyyad Ağayev**

Mühazirə kafedranın iclasında müzakirə olumaqla bəyənilmişdir.
Protokol № "___"__________ **2021-ci il**

**B A K I - 2021**

## MÖVZU № 5. “Cinayət təqibi üzrə icraatın aparılması və vurulmuş ziyanın ödənilməsi”.

## P L A N:

**GİRİŞ:**

1. Cinayət təqibi üzrə icraatın açılması, icraatı aparan orqanlar və icraatın tezliyinin təmin olunması.
2. Cinayət təqibi üzrə icraat materialları və icraatın dayandırılması əsasları.
3. Cinayət prosesində vurulmuş ziyanın ödənilməsinin xüsusiyyətləri.

3.1. Prosessual qərarların icrasının məcburiliyi.

**NƏTİCƏ:**

## Ə D Ə B İ Y Y A T:


1. Azərbaycan Respublikasının Konstitusiyası.Bakı12.11.1995-ci il.
2. AR Cinayət–Prosessual Məcəlləsi. Bakı 2021-ci il ci il
3. Azərbaycan Respublikasının CPM Kommentariyası. Bakı, 2013.
4. AR “Polis haqqında” Qanunu. Bakı 28.10. 1999-cu il, mad. 3-15.
5. AR “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Qanunu. 28 .10 1999
6. Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında (AR 29 .12 . 1998-ci il tarixli Qanunu). “Hüquqi dövlət və qanun” jurnalı № 3-4. səh. 32-25.
7. Azərbaycan Respublikası Cinayət Məcəlləsi. Bakı, 2000-ci il.
8. “Zorakı cinayətlərin qurbanlarına vurulmuş ziyanın ödənilməsi haqqında” Avropa Konvensiyasına qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu.
9. Mirağa Cəfərquliyev. “Cinayət prosesi”. Dərslik. Ümumi hissə. Bakı, 2001-ci il. səh. 80-101.
10. Azərbaycan Respublikası DİN-in 30.08.2011-ci il 560 nömrəli əmri. Azərbaycan Respublikasının daxili işlər orqanlarında təhqiqat işinin təşkilinə dair təlimatın təsdiq edilməsi barədə.
11. Azərbaycan Respublikası DİN-in 03.11.2011-ci il tarixli 680 nömrəli əmri «Törədilmiş və ya hazırlanan cinayətlər və hadisələr barədə məlumatların qəbulu, qeydiyyatı və baxılması qaydaları haqqında Təlimatın təsdiq olunması barədə»
12. Cinayət prosesi fənn proqramı Bakı 2018

13. Firuzə Abbasova “Cinayət prosesi” Dərslik. Ümumi hissə.Bakı 2021”Zərdabi LTD” MMC, 2012, 416 s.
14. Şöhlət Kərimov “İbtidai araşdırma” Bakı , “Elm və təhsil” 2018, 320 səh
15. Cinayət prosesi. Məsələlər Toplusu N.Əliyev, S.Ağayev, A. Mikayılov, İ.Eyyubov, V. Qasımov, Bakı: Mütərcim, 2014-216 səh.

# G İ R İ Ş

Azərbaycan Respublikasının Konstitusiyasında 68-ci maddəsinin 2-ci bəndində “hər kəsin dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququ vardır”, göstərildiyi kimi açıq-aydın məlum olur ki, dövlət şəxsin qeyri-qanuni hərəkətlərinə görə mühakimə edilməsi və özünün də qanunsuz hərəkətlərə yol verdikdə, cavab vermək öhdəliyinin olmasını öz üzərinə götürmüşdür.

Sizə təqdim edəcəyimiz bu günkü mühazəirədə isə biz qeyri-qanuni hərəkətlərlə vətəndaşa vurulmuş zərərin ödənilməsi üçün tədbirlər görmək sahəsində təhqiqat orqanının, müstəntiqin, prokurorun və məhkəmənin qarşısında nə kimi vəzifələr qoyulduğu nəzərinizə çatdırılacaqdır.

Mühazirənin məzmununu təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanları tərəfindən hər hansı şəxsin qanunsuz olaraq:

1) tutulması, təqsirləndirilmiş şəxs qismində cəlb edilməsi, həbsə alınması və saxlanılması, məhkum olunması, əmlakının müsadirə edilməsi;

2) barəsində olan cinayət işinin istintaqı ilə əlaqədar götürmə və axtarış aparılması, əmlakı üzərinə həbs qoyulması, işdən (vəzifədən) kənarlaşdırılması və ya onun hüquqlarını məhdudlaşdıran digər prosessual hərəkətlərin həyata keçirilməsi;

3) barəsində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi;

4) barəsində islah işləri, inzibati həbs və ya cərimə növündə cəza tətbiq edilməsi nəticəsində həmin şəxsə vurulmuş ziyan ödənilməlidir.

Mühazirədə ziyanın ödənilməsinin şərtlərindən və qaydasından, ödənilməli olan ziyanın növlərindən, ziyanın ödənilməsi haqqında tələblərin həll edilməsinin qaydasından söhbət açılır. Qeyd olunan məsələlərin həlli zamanı yaranan hüquq münasibətlərini nizamlayan hüquq normalarının digər hüquq sahələrinə aid olmasından danışılır və həlli yolları göstərilir.

## Sual 1. Cinayət təqibi üzrə icraatın açılması, icraatı aparan orqanlar və icraatın tezliyinin təmin olunması.

Cinayət təqibinin həyata keçirilməsi müəyyən ardıcıl hərəkətlərin aparılması ilə müşayiət olunur. Bu hərəkətlərin hər biri cinayət-prosessual qanunvericiliyə müvafiq qaydada həyata keçirilir və həmin hərəkətlər qanunun tələblərinə uyğun rəsmiləşdirilir. Başqa sözlə, cinayət təqibi ilə əlaqədar bütün fəaliyyət sənədləşdirilir. Bu üsulla toplanmış materiallar sübutetmə qabiliyyətinə malik olmaqla yanaşı, açıq surətdə işin bütün hallarını, gedişini, onun istiqamətini müəyyənləşdirməli və onu öyrənən şəxslərə sənədlər əsasında işlə tanış olmaq şəraiti yaratmalıdır.

**Cinayət təqibi üzrə icraatın aparılmasının məcburiliyi (CPM-in 45-ci mad).**

Cinayət təqibi həyata keçirilərkən onun gedişini və nəticələrini əks etdirən icraat aparılmalıdır.

Cinayət prosessual qanunvericiliyinə əsasən cinayət təqibi ictimai və ictimai-xüsusi ittiham qaydasında həyata keçirilərkən icraat cinayət işi üzrə materiallarda əks olunur. İctimai-xüsusi ittihamlı bəzi cinayətlər üzrə cinayət təqibi məhkəməyədək sadələşdirilmiş icraat formasında həyata keçirilərkən icraat məhkəməyədək sadələşdirilmiş icraatın materiallarında öz əksini tapır. Xüsusi ittiham qaydasında icraatın gedişi və nəticələri isə xüsusi ittiham qaydasında şikayət üzrə icraat materiallarında əks olunur.

Cinayət prosessual qanunvericiliyinə əsasən cinayət təqibi üzrə icraatın üç növü fərqləndirilir:

1) cinayət işi üzrə icraat;

2) məhkəməyədək sadələşdirilmiş icraat;

3) xüsusi ittiham qaydasında icraat.

**Cinayət işi üzrə icraat** - ictimai və ictimai-xüsusi ittiham qaydasında cinayət təqibi həyata keçirilən cinayət əməlləri barəsində təhqiqatçının, müstəntiqin və ya prokurorun cinayət işi başlama haqqında qərar qəbul etməsi ilə başlayır.

Cinayət işi başlama haqqında qərar çıxarıldıqdan sonra cinayət hadisəsi ilə əlaqədar materiallar toplanır. Materialların toplanması və məcmu halında olması üçün işlə bağlı hər bir sənəd nömrələnərək, ardıcıl olaraq cinayət işinə tikilir. Toplanmış bu materialların məcmusu **cinayət işi adlanır**. Bu sənədlər cinayət işi başlanma anından iş üzrə yekun məhkəmə qərarı çıxarılanadək toplanılır.

**İctimai-xüsusi** ittiham qaydasında təqib edilən cinayət əməllərinin bir qrupu – CPM-in 214.4-cü maddəsində göstərilmiş böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat cinayət işi başlama haqqında qərar çıxarılmadan başlayır. Məhkəməyədək sadələşdiridmiş icraat zərərçəkmiş şəxsin şikayəti əsasında təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən şikayət ərizəsinə və ya onun qəbul olunduğu protokola xüsusi dərkənar qoyulmaqla başlanır.

**Xüsusi ittiham qaydasında şikayət üzrə icraat** – yalnız zərərçəkmiş şəxsin (xüsusi ittihamçının) şikayəti əsasında məhkəmə tərəfindən xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul edilməsi və məhkəmə baxışının təyin edilməsi barədə qərarın qəbul edilməsi ilə başlanır. Xüsusi ittiham qaydasında şikayət üzrə icraat yalnız məhkəmə tərəfindən həyata keçirilir.

Eyni zamanda qanunvericilikdə çox düzgün olaraq bir daha nəzərə çatdırılır ki, cinayət təqibi üzrə icraata cinayət təqibini istisna edən hallara, cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallara, habelə cinayət təqibinin həyata keçirilməsinə mane olan hallara görə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə xitam verilə bilər.

**Cinayət işinin başlanması ilə bağlı cinayət təqibi üzrə icraatın açılmasının xüsusiyyətləri (CPM-in 46-cı mad).**

CPM-in 46-cı maddəsinə əsasən ictimai ittiham və ictimai-xüsusi ittiham qaydasında cinayət təqibi üzrə cinayət işinin başlanması üçün müvafiq səbəb və əsaslar olmalıdır. Cinayət işinin başlanması üçün səbəb kimi törədilmiş və ya hazırlanan cinayət haqqında fiziki şəxs tərəfindən verilən ərizə, hüquqi şəxsin (vəzifəli şəxsin) və ya kütləvi informasiya vasitəsinin məlumatları, yaxud bu məlumatların təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən bilavasitə aşkar edilməsi ola bilər.

Cinayət işinin başlanması üçün əsas cinayətin əlamətlərinə işarə edən kifayət qədər dəlillərin olmasıdır. Cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsini və cinayət təqibini istisna edən halların olmadığını güman etməyə əsaslar mövcuddursa öz səlahiyyətləri daxilində fəaliyyət göstərən təhqiqatçı, müstəntiq və ya prokuror dərhal cinayət işi başlamalıdır. Lakin bütün hallarda cinayət təqibinin başlanması heç də belə klassik formada baş vermir. Ola bilər ki, cinayət təqibini istisna edən halların mövcudluğu istisna edilməklə, məhkəmə iclasında sədrlik edən ədalət mühakiməsi əleyhinə olan hər hansı cinayətin əlamətlərinin məhkəmə baxışı zamanı müəyyən olunduğuna prokurorun diqqətini cəlb etsin və prokuror bununla bağlı dərhal cinayət işi başlamalıdır. Bu halda prokuror cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edərsə, məhkəmə iclasında sədrlik edən həmin qərarın qanunsuz və

əsassız olması qənaətinə gəldikdə, yuxarı prokurordan zəruri tədbirlərin görülməsini tələb etməyə haqlıdır.

Cinayət işinin dərhal başlanması üçün Cinayət-Prosessual Məcəlləsinin 209.2-ci maddəsində nəzərdə tutulmuş halların mövcudluğu da tam kifayətdir.

Bu halda hərtərəfli və obyektiv ibtidai araşdırma cinayət təqibinin həyata keçirilməsinə mane olan aşağıdakı hallar müəyyən olunanadək aparılır:

– cinayət hadisəsinin mövcudluğunu təsdiq edən sübutlar əldə edilmədikdə;

– cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində yeganə təqsirləndirilə bilən şəxsə qarşı CPM-nin 39.1.4, 39.1.7 və 39.1.10-cu maddələrində göstərilən cinayət təqibini istisna edən hallar olduqda;

– cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsinə görə hər hansı şəxsə qarşı CPM-nin 39.1.3, 39.1.11 və 39.1.12-ci maddələrində göstərilən cinayət təqibini istisna edən hallar olduqda. Deməli, yuxarıda sadalanan bu hallar ortaya çıxarsa cinayət təqibinin icraatına xitam verilir.

**Cinayət təqibi üzrə icraatı aparan orqanlar (CPM-in 47-ci mad).**

Həmin maddəyə əsasən cinayət təqibi üzrə icraat cinayət prosesini həyata keçirən orqan tərəfindən aparılır. Bununla əlaqədar məsuliyyət müvafiq olaraq icraatında cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat üzrə material və xüsusi ittiham qaydasında şikayət üzrə material olan təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmənin üzərinə düşür.

CPM-in 7.0.5-ci mad. müvafiq olaraq cinayət prosesini həyata keçirən orqanlar dedikdə, icraatında cinayət işi və ya cinayət təqibi ilə bağlı digər materiallar olan təhqiqat, istintaq, prokurorluq orqanları və ya məhkəmələr başa düşülür.

Xarici dövlətlərin müvafiq orqanları ilə cinayət təqibi üzrə münasibətlərin qurulması, həmçinin bu dövlətlərin məhkəmə və istintaq orqanlarının göstərişlərinin yerinə yetirilməsi ilə bağlı icraat aparılması

Azərbaycan Respublikasının qanunvericiliyi və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə müəyyən edilən müvafiq məhkəmənin, prokurorun və müstəntiqin üzərinə düşür. CPM-in şərh edilən maddəsi cinayət prosesini həyata keçirən orqanların əsas vəzifələrindən birinin – cinayət təqibinin həyata keçirilməsi səlahiyyətinin subyektlərini müəyyən etmişdir. Bu vəzifənin həyata keçirilməsi vətəndaşların işi yox, qanunvericiliklə səlahiyyət verilmiş orqanların vəzifəsidir.

**Cinayət təqibi** qanunvericiliklə müəyyən edilmiş səlahiyyətli orqan tərəfindən cinayət törətmiş şəxslə (şəxslərlə) müəyyən cinayət-prosessual münasibətlərin qurulmasını və dövlətin hüquq-mühafizə fəaliyyətinin həyata keçirilməsini nəzərdə tutur.

Cinayət təqibini yalnız təhqiqat, istintaq və prokurorluq orqanları həyata keçirirlər. CPM-in şərh edilən maddəsi cinayət təqibini həyata keçirən orqanlar daxilində konkret iş (material) üzrə icraata görə məsuliyyət daşıyan vəzifəli şəxsləri də müəyyən etmişdir. Bununla əlaqədar məsuliyyət müvafiq olaraq icraatında cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat üzrə material və ya xüsusi ittiham qaydasında şikayət üzrə material olan təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmənin üzərinə düşür.

Lakin, artıq qeyd edildiyi kimi, məhkəmə cinayət təqibini həyata keçirən orqan yox, cinayət işi üzrə icraatı yerinə yetirən orqandır. Ona görə də CPM-in 47.1-ci maddəsində söhbət “cinayət təqibi üzrə icraatın həyata keçirilməsi ilə əlaqədar məsuliyyət” - dən yox “cinayət işi (məhkəməyədək sadələşdirilmiş icraatın materialları, xüsusi ittiham qaydasında şikayət) üzrə icraatın həyata keçirilməsi ilə əlaqədar məsuliyyət” dən gedir. **Azərbaycan Respublikası ilə xarici dövlətlər arasında,** cinayət təqibi üzrə münasibətlərin qurulmasının əsasını dövlətlər arasındakı hüquqi yardım haqqında müqavilələr və sazişlər təşkil edir.

Azərbaycan Respublikasının ərazisində cinayət təqibi ilə əlaqədar hüquqi yardımın göstərilməsi “cinayət işlərinə dair hüquqi yardım haqqında” Azərbaycan Respublikasının 29 iyun 2001-ci il tarixli Qanununda CPM-in

57-ci fəslində, Azərbaycan Respublikasın qoşulduğu beynəlxalq müqavilələrdə, habelə ikitərəfi sazişlərdə müəyyən edilmiş qaydada həyata keçirilir (CPM-in 488-505-ci mad).

Cinayət təqibinin həyata keçirilməsi ilə bağlı məsələlərin əlaqələndirilmiş qaydada həlli və transmilli, transregional, habelə mütəşəkkil cinayətlər törətmiş şəxslərin axtarışı və bir sıra başqa bu kimi problemlərin həlli üçün dünyanın əksər dövlətlərinin daxili işlər orqanlarını (polis) özündə birləşdirən "İnterpol" təşkilatı ölkəmizdə mövcuddur.

Azərbaycan Respublikası da bu təşkilatın üzvüdür və bu işin koordinasiyasi və əməkdaşlığın təşkili üçün "İNTERPOL" un Azərbaycanda Milli Mərkəzi Bürosu mövcuddur.

Bundan başqa, AR MDB dövlətləri ilə də hüquqi yardım çərçivəsində əməkdaşlıq edir. Azərbaycan Respublikası 7 oktyabr 2002-ci il tarixli Kişinyov Konvensiyasına əsasən, MDB dövlətləri, o cümlədən Rusiya Federasiyası ilə cinayət, mülki və ailə məsələlərinə (işlərinə) dair hüquqi münasibətlər və hüquqi yardım sahəsində əməkdaşlıq edir.

**Cinayət təqibi üzrə icraatın tezliyinin təmin olunması (CPM-in 48-ci mad).** Həmin maddəyə əsasən cinayət təqibi üzrə icraatın vaxtında və əsaslı başlanması cinayət mühakimə icraatının vəzifələrinin müvəffəqiyyətlə yerinə yetirilməsini təmin etməklə yanaşı, sosial birgəyaşayış qaydalarının sarsılmazlığına, vətəndaşların inamını və ədalət mühakiməsi orqanlarının nüfuzunu artırır, qanunçuluğun möhkəmləndirilməsinə kömək edir. Cinayət təqibi üzrə icraat təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən cinayət prosessual qanunvericilikdə nəzərdə tutulmuş müddətlərdə elə başlamalı və qurtarmalıdır ki, sübutların vaxtında əldə olunması və tədqiq edilməsi təmin olunsun; şəxslər onlara ittiham elan olunmasını, işlərinə baxılmasını və pozulmuş hüquqlarının bərpasını həddən artıq uzun müddət gözləməsinlər.

Yuxarıda sadalanan şərtlərə əməl edərək cinayət prosesini həyata keçirən orqan hər bir halda çalışmalıdır ki, haqqında həbs, ev dustaqlığı və

ya girov qismində qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxs qətimkan tədbiri seçildikdən sonra CPM-in 158 və 159-cu maddələrində nəzərdə tutulmuş müddətlər keçənədək ittihamın əsaslılığının müəyyən olunması üçün məhkəmə qarşısında dayana və məhkəmə baxışından keçə bilsin; hər hansı cinayət işi başlandığı andan CPM-in 218-ci maddəsində nəzərdə tutulmuş müddətlərdə ittiham aktı ilə məhkəməyə göndərilsin və ya cinayət təqibinə xitam verilsin; məhkəməyə daxil olmuş hər hansı cinayət işinə, məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiala və ya xüsusi ittiham qaydasında şikayətə, habelə çıxarılmış hökm və məhkəmənin digər qərarlarına dair şikayət və protestlərə CPM-in 298.2, 301.4, 391.1, 419.3, 426.2 və 427.1-ci maddələrində nəzərdə tutulmuş müddətlərdə baxılmağa başlansın.

Cinayət təqibi üzrə icraatın tezliyinin təmin olunması təkcə ona görə deyildir ki, iş üzrə sübutlar vaxtında toplansın, tədqiq edilsin və beləliklə, cinayət təqibi uğurla başa çatdırılsın, bu, həm də ona görə lazımdır ki, konkret icraat üzrə mənafelərinə toxunulan şəxs barəsində süründürməçiliyə yol verilməsin, həmin şəxs bu məsələnin həllini uzun müddət gözləyəsi olmasın. Deməli, cinayət təqibi üzrə icraatın tezliyi həm cinayət təqibini həyata keçirən orqanlara, həm də barəsində cinayət təqibi həyata keçirən şəxslərə lazımdır. Tezliyin təmin olunması isə cinayət prosesini həyata keçirən orqanın borcudur.

Cinayət-prosessual qanunvericilikdə cinayət işi üzrə icraatın tezliyinin təmin edilməsi məqsədi ilə cinayət prosesinin ayrı-ayrı mərhələlərinin, bir sıra istintaq və ya prosessual hərəkətlərin, habelə bəzi prosessual məcburiyyət tədbirlərinin dəqiq müddəti müəyyən edilmişdir.

CPM-in müvafiq müddəalarında cinayət prosesinin ayrı-ayrı mərhələlərinin, habelə prosessual məcburiyyət tədbirlərinin tətbiqinin son müddətləri göstərilmişdir.

Lakin bu heç də o demək deyildir ki, cinayət işi üzrə icraat həmin müddətlərin sonunadək davam etdirilməli, prosessual məcburiyyət tədbirləri

isə həmin müddətlərin yuxarı həddində tətbiq edilməlidir. Bir sözlə, cinayət prosesini həyata keçirən orqanlar konkret işin icraatı zamanı prosessual müddətlərdən səmərəli istifadə etməlidirlər.

**Cinayət təqibi üzrə icraatın birləşdirilməsi (CPM-in 49-cu mad).**

Cinayət prosesində cinayət təqibi üzrə icraatın birləşdirilməsi dedikdə, yalnız bir neçə şəxsin bir cinayəti birlikdə törətməkdə ittiham olunmaları üzrə cinayət təqibi və ya bir  şəxsin bir neçə cinayəti törətməsi barədə cinayət təqibinin bir icraatda birləşdirilməsinə qanunda yol verilməsi başa düşülür. Belə olan halda, artıq aydın olur ki, müxtəlif cinayətlər törətmiş şəxslərin hər hansı  cinayəti birgə və ya mütəşəkkil dəstənin  tərkibində törətməsi halları istisna olunmaqla, həmin şəxslərə qarşı ittihamın bir cinayət işində birləşdirilməsinə qanunla yol verilmir.

Cinayət mühakimə icraatında bir sıra kateqoriya işlər mövcuddur ki, onların bir icraatda birləşdirilməsinə qanunda qəti surətdə qadağan qoyulmuşdur. CPM-in 49-cu maddəsinin tələbinə görə aşağıdakı işlər bir icraatda **birləşdirilə bilməz:**

1) cinayətin törədilməsi ilə onun gizlədilməsi və ya xəbər verilməməsinə dair ittihamlar üzrə;

2) cinayət təqibi  bir əmələ görə xüsusi ittiham qaydasında, digəri ictimai və ya ictimai-xüsusi ittiham qaydasında  həyata keçirilən ittihamlar üzrə;

3) birgə baxılması obyektiv araşdırılmasına mane ola bilən digər bütün ittihamlar üzrə.

Bu da aydındır ki, cinayət işi üzrə icraatın birləşdirilməsi yalnız müstəntiqin və ya prokurorun qərarı ilə, xüsusi ittiham qaydasında icraat isə məhkəmənin qərarı əsasında həyata keçirilə bilər. Cinayət prosesində cinayət təqibi üzrə icraatın birləşdirilməsi ilə yanaşı onun ayrılması da müvafiq qanun çərçivəsində nizamlanmışdır. Yəni cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında baxılmasına mane olmayan və onun xarakterinə görə ayrıca baxılması mümkün olan bütün

hallarda və ən başlıcası buna belə bir zərurət yaranarsa cinayət təqibi üzrə icraatın ayrılmasına yol verilir. Qanunda elə hallar da nəzərdə tutulub ki, onların mövcudluğunu cinayət təqibi üzrə icraatın ayrılmasına birbaşa göstəriş kimi qəbul etmək lazımdır. Cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində iştirak etmiş, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan şəxs digər şəxslərlə birlikdə cinayət təqibinə məruz qalarsa, onun barəsindəki icraat ibtidai araşdırma zamanı mümkün qədər ayrıca icraata ayrılmalıdır. Cinayət təqibi üzrə icraatın ayrılması müstəntiqin, prokurorun və ya məhkəmənin qərarı ilə həyata keçirilir. Cinayət prosessual qanunvericiliyinə əsasən cinayət təqibi üzrə aparılan prosessual hərəkətlərin gedişi və nəticələri protokol və digər yazılı sənədlərdə, habelə tərkib hissəsi kimi onlara əlavə olunan fotoqrafik neqativlərdə, fotoşəkillərdə, diapozitivlərdə, audioyazılarda, fonoqramlarda, video və kino çəkiliş lentlərində, planlarda, sxemlərdə, izlərin surətlərində və basmalarda, rəsmlərdə, elektron və digər məlumat daşıyıcılarında əks olunmalıdır. Bu protokollaşdırılma, bir qayda olaraq, cinayət prosesini həyata keçirən orqan tərəfindən təmin edilməlidir.

**Cinayət təqibi üzrə icraatın ayrılması (CPM-in 50-ci mad).**

Cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında baxılmasına mane olmayan və onun xarakterinə görə ayrıca baxılması mümkün olan bütün hallarda cinayət təqibi üzrə icraatın ayrılmasına yol verilir.

Cinayət əməlinin törədilməsində iştirak etmiş, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan şəxs digər şəxslərlə birlikdə cinayət təqibinə məruz qalarsa, onun barəsindəki icraat ibtidai araşdırma zamanı mümkün qədər ayrıca icraata ayrılmalıdır.

**Cinayət təqibi üzrə aparılan prosessual hərəkətlərin gedişinin və nəticələrinin protokollaşdırılmasının məcburiliyi (CPM-in 51-ci mad)**

Prosessual hərəkətlərin protokolları elə tərtib olunmalıdır ki, onların məzmunu bilavasitə və ya texniki vasitələrin köməyilə aydın başa düşülsün.

Protokol onu tərtib edən şəxs tərəfindən imzalanır. Bundan sonra protokol prosessual hərəkətin aparılmasında iştirak etmiş bütün şəxslərə oxunur, onlara protokola daxil edilməli olan qeydlər etmək hüququ və protokolu olduğu kimi və ya qeydlərlə imzalamaq vəzifəsi izah olunur.

Cinayət prosesində **protokol dedikdə,** cinayət prosesini həyata keçirən orqanlar tərəfindən həyata keçirilən istintaq və prosessual hərəkətin (hərəkətlərin) gedişinin, məzmununun və nəticələrinin əks etdirilməsi üçün tərtib olunan prosessual sənəd başa düşülür. Protokol məlumat-əksetdirici xarakter daşıyan prosessual sənədlərin ən geniş yayılmış növüdür. Qərar (hökm və digər sənədlər sərəncamverici xarakter daşıyır, lakin protokol heç bir göstəriş nəzərdə tutmur, yalnız konkret cinayət-prosessual hərəkətin (hərəkətlərin) edildiyi faktı təsdiqləyir, onun gedişini və nəticələrini əks etdirir.

CPM-in 51.1-ci maddəsində göstərilən digər **yazılı sənədlər dedikdə**, yazıldığı dildən, yazılı obyektin icra texnikasından (kağız üzərində, fotoşəkildə və s.) asılı olmayaraq, faktların və halların keçmişdə və indiki zamanda olmasını təsdiq edə ya inkar edən məlumat daşıyıcıları başa düşülməlidir. Həmin sənədlərdə əks olunan faktlar cinayət işi üzrə əhəmiyyət kəsb edirsə, onlar sübut növü hesab oluna bilər. Ona görə də məlumat daşıyıcısı olan həmin sənədlər cinayət işi üzrə araşdırmada istifadə olunmalıdır.

## Sual 2. Cinayət təqibi üzrə icraat materialları və icraatın dayandırılması əsasları.

### Cinayət təqibi üzrə icraat materialları (CPM-in 52-ci mad)

Cinayət təqibi üzrə icraatın materialları dedikdə, sübutlar qismində əlavə olunmuş sənədlər, CPM-in 51.1-ci maddəsində nəzərdə tutulmuş sənədlər, habelə cinayət prosesini həyata keçirən orqanlar tərəfindən qəbul

olunmuş qərarlar və cinayət prosesi tərəflərinin yazılı müraciətləri başa düşülür və onlar müvafiq olaraq cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraatın və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materiallarında saxlanılır. Cinayət-prosessual qanunvericiliyin ciddi tələblərindən biri də ondan ibarətdir ki, hər bir sənəd müvafiq olaraq cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraatın və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materiallarına əlavə olunan kimi dərhal vərəqələr üzrə nömrələnməlidir. Cinayət prosesini həyata keçirən orqan həmin vərəqələrin ardıcıl nömrələnməsini və xronoloji qaydada müvafiq olaraq cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraatın və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materiallarına tikilməsini təmin etməlidir.

İstintaq hərəkətlərinin protokolları dərhal və ya bütün hallarda istintaq hərəkətinin aparıldığı gündən sonrakı iş günündən gec olmayaraq Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanlarının Azərbaycan Respublikası Baş Prokurorluğu ilə birgə müəyyən etdiyi qaydada qeydə alınmalıdır. Bütün prosessual qərarlar ciddi hesabat sənədləri olmaqla xüsusi formalı, nömrələnmiş blanklarda tərtib olunur. Həmin blankların formaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları və Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən birgə müəyyən olunur.

Cinayət işinin materialları hər bir qovluğun üzərində müvafiq yazıları və orada sənədlərin siyahısı cildlənmiş bir və ya bir neçə qovluqda tikilməlidir.

Həcminə və ya xarakterinə görə cinayət işinin materiallarında saxlanıla bilməyən digər sənədlər və əşyalar onun tərkib hissəsi kimi ayrıca saxlanılır. Cinayət işinin materiallarından ayrı saxlanılan əşyaların və sənədlərin siyahısı cinayət işinin materiallarına əlavə edilməlidir.

Cinayət işinin materiallarına aid sənədlərin surətləri cinayət prosesini həyata keçirən orqan tərəfindən düzgünlüyü təsdiq edilmiş kağızda və ya elektron daşıyıcısında çıxarıla bilər.

CPM-in 135.1-ci maddəsinə əsasən, cinayət təqibi üzrə əhəmiyyət kəsb edə bilən məlumatları hərf, rəqəm, qrafika və digər işarə formasında özündə əks etdirən kağız, elektron və ya digər daşıyıcılar sənəd hesab olunur.

**Sənədlər** dedikdə, yazı obyektinin icra texnikasından, yazı formasından və dilindən asılı olmayaraq, keçmişdə olmuş və ya hazırda olan faktlar və hallar haqqında məlumat daşıyıcıları başa düşülür.

CPM-in 52.1-ci maddəsi cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraatın və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materiallarının sənədlərdən ibarət olduğunu təsbit etmişdir.

**Həmin sənədlər üç növə bölünmüşdür:**

1. Sübutlar qismində əlavə olunmuş sənədlər (CPM-in 135-ci mad).

2. İstintaq və prosessual hərəkətlərin protokolları və onların əlavələri (CPM-in 51-ci mad).

3. Cinayət prosesini həyata keçirən orqanların qərarları və proses iştirakçılarının yazılı müraciətləri (ərizələr, şikayətlər, vəsatətlər və s.).

Bütün prosessual qərarlar xüsusi formalı, nömrələnmiş blanklarda tərtib olunmalıdır. Bu blankların formaları Azərbaycan Respublikasının Daxili İşlər, Milli Təhlükəsizlik, Ədliyyə, Vergilər Nazirlikləri, Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən birgə müəyyən olunmuşdur. Azərbaycan Respublikası CPM-in 52.3-cü maddəsinə əsasən, bütün prosessual qərarların blankları ciddi hesabat sənədləri kimi vahid mərkəzləşdirilmiş qaydada nömrələnir və onların hesabatı aparılır.

**Cinayət təqibi üzrə icraatın dayandırılması əsasları (CPM-in 53-cü mad)**

**CPM-in 53 maddəsinə** müvafiq olaraq cinayət təqibi üzrə icraaatın dayandırılması əsasları göstərilmişdir. Cinayət təqibi üzrə icraatın dayandırılması üçün qanunvericilikdə bir sıra konkret əsaslar nəzərdə tutulmuşdur.

1. təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs müəyyən olunmadıqda;

2. təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin olduğu yer müəyyən olunmadıqda.;

3. təqsriləndirilən şəxs qismində cəlb edilməli olan şəxs istintaqdan və məhkəmədən gizləndikdə;

4. təqsriləndirilən şəxsin ağır xəstəliyi və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda olması ilə əlaqədar cinayət prosesində iştirakı müvəqqəti mümkün olmadıqda;

5. cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində təqib olunan şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi və ya xarici dövlət tərəfindən verilməsi məsələsi qanunla müəyyən olunmuş qaydada qoyulduqda;

6. insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı məhkəmə tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edildikdə;

7. məhkəmə qərarlarının icra edilməsi ilə əlaqədar cinayət təqibi zamanı mülki-prosessual qanunvericiliyə uyğun olaraq qərarın icrası kassasiya instansiyası məhkəməsi tərəfindən dayandırıldıqda.

Cinayət təqibi üzrə icraat dayandırıldıqda cinayət işi üzrə icraat, məhkəməyədək sadələşdirilmiş icraat və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat da dayandırılır.

Cinayət təqibi üzrə icraat aşağıdakılara ***riayət edilməklə*** dayandırıla bilər:

1. CPM-in 53.1.1-ci maddəsində nəzərdə tutulmuş hallarda yalnız cinayət işinin başlanmasından 2 (iki) ay keçdikdə;

2. CPM-in 53.1.2-ci maddəsində nəzərdə tutulmuş hallarda yalnız təqsirləndirilən şəxs haqqında axtarış elan edildikdən sonra;

3. CPM-in 53.1.3-cü maddəsində nəzərdə tutulmuş hallarda təqsirləndirilən şəxsin axtarışının elan edilməsi ilə eyni vaxtda;

4. CPM-in 53.1.4 – 53.1.6-cı maddələrində nəzərdə tutulmuş hallarda cinayət təqibinin dayandırılmasına əsas verən, müvafiq olaraq stasionar tibb müəssisəsinin şəxsin ağır xəstəliyini təsdiq edən tibbi rəyi, şəxsin Azərbaycan Respublikasının hüdudlarından kənarda olmasını təsdiq edən təhqiqat orqanının arayışı, şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi barədə Azərbaycan Respublikası Baş Prokurorunun təqdimatı və ya Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edilməsinə dair məhkəmənin qərarı olduqda.

5. CPM-in 53.1.7-ci maddəsində nəzərdə tutulmuş hallarda qərarın icrasının dayandırılması haqqında kassasiya instansiyası məhkəməsinin qərarı olduqda.

Cinayət təqibi üzrə iki və daha artıq təqsirləndirilən şəxs olarsa və icraatın dayandırılması əsasları onların hamısına aid deyilsə, müstəntiq, prokuror və ya məhkəmə bütün təqsirləndirilən şəxslərin iştirakı olmadan icraata obyektiv baxılması mümkün olmadıqda, icraatın bir hissəsini ayrıca icraata ayırmağa, onu dayandırmağa və ya bütün icraatı dayandırmağa haqlıdır. Cinayət təqibi üzrə icraat dayandırılanadək cinayət prosesini həyata keçirən orqan təqsirləndirilən şəxs olmadan həyata keçirilməsi mümkün olan bütün prosessual hərəkətləri yerinə yetirməli, müstəntiq isə bundan əlavə cinayət törətmiş şəxsin müəyyən edilməsi və tapılması üçün bütün tədbirləri görməlidir. İcraatın dayandırılmasına əsas verən səbəblər aradan qalxanadək cinayət təqibi üzrə icraat dayandırılmış qalır.

Bu səbəblər aradan qalxdıqdan sonra prokurorun, müstəntiqin və ya məhkəmənin qərarı ilə cinayət təqibi üzrə icraat təzələnir.

Təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin istintaqdan və ya məhkəmədən gizlənməsi, ömürlük azadlıqdan məhrum etmə növündə cəza nəzərdə tutulan cinayətin törədilməsi, habelə sülh və insanlıq əleyhinə və müharibə cinayətləri törədilməsi halları istisna edilməklə, cinayət məsuliyyətinə cəlbetmə müddətlərinin keçməsi ilə əlaqədar cinayət törətmiş şəxslərin müəyyən edildiyi cinayət təqibi üzrə dayandırılmış icraata xitam verilir.

**Cinayət təqibi üzrə icraatın başa çatdırılması (CPM-in 54-cü mad)**

Cinayət təqibi üzrə icraat aşağıdakı hallarda başa çatır:

1. cinayət təqibi üzrə icraata tam xitam verilməsi barədə qərar qüvvəyə mindikdə;
2. icrası üçün xüsusi tədbirlərin görülməsi tələb edilmədikdə, hökm və ya məhkəmənin digər yekun qərarı qüvvəyə mindikdə;
3. icrası üçün xüsusi tədbirlərin görülməsi tələb edildikdə, hökmün və ya məhkəmənin digər yekun qərarının icraya yönəldilməsi təsdiq olunduqda.

**Sual 3. Cinayət prosesində vurulmuş ziyanın ödənilməsinin xüsusiyyətləri.**

**Şəxsin bəraət qazanması (CPM-in 55-ci mad)**

Cinayət prosesini həyata keçirən orqanların qərarı ilə hər hansı bir şəxs cinayət təqibi zamanı bəraət qazanıbsa, bununla əlaqədar ortaya çıxan bir sıra mühüm prosessual məsələlərin də həll edilməsi zərurəti yaranır. Yəni, vurulmuş ziyanın ödənilməsi hüququ olan şəxslərin müəyyənləşdirilməsi; vurulmuş ziyanın ödənilməsinin xüsusiyyətləri;

vurulmuş ziyana görə kompensasiya; vurulmuş ziyanın ödənilməsi ilə bağlı digər hüquqların bərpası; vurulmuş ziyanın ödənilməsini tələb etmək hüququnun tanınması; vurulmuş ziyanın ödənilməsini tələb etmək hüququnun izah edilməsi; cinayət təqibi üzrə icraat qurtardıqdan sonra vurulmuş ziyanın ödənilməsi qaydaları və digər məsələlər.

Yuxarıda sadalanan müddəaların cinayət prosesində insan hüquq və azadlıqlarının bərpasında və qorunmasında daşıdıqları məsuliyyət göz qabağındadır və heç bir şərhə ehtiyac qalmır. Beləliklə, cinayət prosesində məhkəmə baxışı zamanı təqsiri sübuta yetirilməmiş şəxs həmin məhkəmə baxışında aşkar və təxirə salınmadan Azərbaycan Respublikasının adından təqsirsiz elan edilir və ona məhkəmənin hökmü ilə bəraət verilir.

Haqqında məhkəmənin bəraət hökmü çıxarılmış və ya məhkəməyədək icraat zamanı cinayət təqibinə bəraətverici əsasla xitam verilmiş hər hansı şəxs təqsirsiz sayılır. Belə olan halda qanunda göstərilmişdir ki, haqqında bəraət hökmü çıxarılmış və ya hər hansı əsaslarla cinayət təqibinə xitam verilmiş şəxsin mənzil, mülkiyyət, əmək və digər hüquqlarına hər hansı məhdudiyyət qoyula bilməz.

**Vurulmuş ziyanın ödənilməsi hüququ olan şəxslər (CPM-in 56-cı mad).**

Cinayət prosesində vurulmuş ziyanın ödənilməsi hüququ olan şəxslər dəqiq müəyyən edilərək, CPM-in 56-cı maddəsinə müvafiq olaraq cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyanın ödənilməsi hüququna malik olduqları bütün təfsilatı ilə müəyyən olunmuşdur. Belə kateqoriya şəxslərə aşağıdakılar aid edilmişdir:

1) bəraət almış təqsirləndirilən şəxs;

2) CPM-in 39.1.1, 39.1.2, 29.1.6, 39.1.8, 39.2-ci maddələrində nəzərdə tutulmuş əsaslarla barəsində cinayət təqibinə xitam verilmiş şəxs;

3) CPM-in 39.1.3, 39.1.4, 39.1.10 və 39.1.11-ci maddələrində nəzərdə tutulmuş əsaslarla barəsində cinayət təqibinə xitam verilməli olan,

lakin vaxtında xitam verilməyən və haqqında cinayət təqibi davam etdirilən şəxs;

4) CPM-in 39.1.12-ci maddəsində nəzərdə tutulmuş əsaslarla barəsində cinayət təqibinə xitam verilməli olan və buna razılıq alınmasına baxmayaraq, haqqında cinayət təqibi davam etdirilən şəxs;

5) qanunsuz həbs olunmuş və ya tibbi, yaxud tərbiyə müəssisəsinə məcburi yerləşdirilmiş, habelə qanuni əsas olmadan müəyyən edilmiş müddətdən artıq həbsdə saxlanılmış şəxs;

6) cinayət təqibi üzrə icraat zamanı qanunsuz olaraq CPM-in 176 və 177-ci maddələrində nəzərdə tutulmuş hallarda prosessual məcburiyyət tədbirlərinə məruz qalmış şəxs.

**Vurulmuş ziyanın ödənilməsinin xüsusiyyətləri (CPM-in 57-ci mad)**

Vurulmuş ziyanın ödənilməsinin xüsusiyyətləri ilə bağlı cinayət-prosessual qanunvericilikdə birbaşa nəzərə alınmışdır ki, cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində CPM-in 56-cı maddəsində göstərilmiş şəxslərə vurulmuş **mənəvi, fiziki** və **maddi ziyan ödənilməlidir.** Həmçinin bu şəxslərin əmək və mənzil hüquqları bərpa edilməli, bunlar mümkün olmadıqda isə həmin hüquqların pozulması nəticəsində dəyən ziyanın pul kompensasiyası təmin edilməlidir. Qanunvericilikdə şəxsə dəyən ziyanın hansı andan hesablanması məsələləri də geniş araşdırılmışdır. CPM-in 57.2-ci maddəsinə müvafiq olaraq vurulmuş ziyan aşağıdakı andan hesablanır:

– CPM-in 56.0.1, 56.0.2 və 56.0.6-cı maddələrində göstərilən şəxslərə – cinayət prosesini həyata keçirən orqanın cinayət təqibini istisna edən müvafiq halları bildiyi və bilməli olduğu gündən yeddi gün keçdikdən sonra;

– CPM-in 56.0.3 və 56.0.4-cü maddələrində göstərilmiş şəxslərə – müvafiq olaraq cinayət qanununun və ya amnistiya aktının qüvvəyə mindiyi andan.

## Vurulmuş ziyana görə kompensasiya (CPM-in 58-ci mad)

Cinayət prosesində vurulmuş ziyana görə kompensasiya məsələsinə gəlincə, aydın olur ki, qanunvericiliyin tələbinə görə cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş maddi ziyan əsaslandırılaraq hesablandıqdan sonra kompensasiya verilməklə tam həcmdə ödənilməlidir.

Fiziki və mənəvi ziyan Azərbaycan Respublikasının qanunvericiliyi ilə digər hal nəzərdə tutulmayıbsa, məhkəmə tərəfindən ədalətli hesab olunmuş məbləğdə ödənilir.

Vurulmuş ziyana görə kompensasiyanın ödənilməsi məsələsini araşdıranda görürük ki, burda qanunvericilik qaranlıq bir məsələ saxlamamışdır, yəni nəyə görə bu kompensasiyanın verilməsi dəqiq və dürüst göstərilmişdir.

CPM-in 56-cı maddəsində göstərilən şəxslərə aşağıdakılara görə kompensasiya verilir:

1) məhrum olduğu əmək haqqı, pensiya, müavinət və başqa gəlirlər;

2) müsadirə edilməsi, dövlət nəfinə keçirilməsi, istintaq orqanları tərəfindən götürülməsi, üzərinə həbs qoyulması ilə vurulmuş əmlak ziyanı;

3) ödənilmiş məhkəmə xərcləri;

4) müdafiəçiyə ödənilmiş pul məbləği;

5) hökmün icrası zamanı ödənilmiş və ya tutulmuş cərimə.

## Vurulmuş ziyanın ödənilməsi ilə bağlı digər hüquqların bərpası (CPM-in 59-cu mad)

Vurulmuş ziyanın ödənilməsi ilə bağlı digər hüquqların bərpası da qanunvericilikdə nəzərtə tutulmuşdur.

Belə ki, CPM-in 56-cı maddəsində göstərilən şəxs vurulmuş ziyanın ödənilməsi ilə əlaqədar:

– əvvəlki vəzifəsinə bərpa olunmaq, bu mümkün olmadıqda isə ona bərabər vəzifəyə təyin olunmaq və ya əvvəlki vəziəfəsinin itirilməsi ilə bağlı vurulmuş ziyana görə pul kompensasiyasını almaq;

– azadlıqdan məhrum edildiyi və ya azadlığının məhdudlaşdırıldığı vaxtı iş stajına daxil etdirmək;

– əvvəl yaşadığı evini (mənzilini) qaytarmaq, mümkün olmadıqda isə ona bərabər tutulan, o cümlədən sahəsinə və yerləşdiyi yerə uyğun yaşayış evinə (mənzilə) köçürülmək;

– məhrum olduğu xüsusi və ya hərbi rütbəni bərpa etdirmək;

– məhrum olduğu fəxri adını və ya dövlət təltiflərini qaytarmaq hüquqlarına malikdir.

Cinayət-prosessual qanunvericilik bununla kifayətlənməyərək tələb edir ki, şübhəli və ya təqsirləndirilən şəxsi ləkələyən cinayət təqibi haqqında məlumatları dərc edən kütləvi informasiya vasitəsi vətəndaşın təqsirsizliyini şübhə altına almadan bir ay müddətində iş üzrə yekun qərarı haqqında məlumat verməlidir.

Vurulmuş ziyanın ödənilməsini tələb etmək hüququ olan şəxslər (CPM-in 60-cı mad).

CPM-in 56-cı maddəsində göstərilən şəxslər, onların qanuni nümayəndələri, növbə üzrə daha yaxın vərəsələri, habelə vurulmuş ziyanın ödənilməsi hüququ olan şəxs öldükdə qanuna əsasən ailə başçısının itirilməsinə görə pensiya ilə təmin edilməli ölmüş şəxsin ailə üzvləri malikdir.

Vurulmuş ziyanın ödənilməsini tələb etmək hüququnun tanınması (CPM-in 61-ci mad)

Cinayət prosesi gedişi zamanı vurulmuş ziyanın ödənilməsini tələb etmək hüququ qanuni qüvvəyə minmiş bəraət hökmündə və ya cinayət təqibinə xitam verilməsi haqqında qərarda tanınır.

Vurulmuş ziyanın ödənilməsini tələb etmək hüququnun izah edilməsi (CPM-in 62-ci mad)

Cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyanın ödənilməsi hüququnun şəxsə izah edilməsi haqqında ayrıca protokol tərtib olunur.

**Cinayət təqibi üzrə icraat qurtardıqdan sonra vurulmuş ziyanın ödənilməsi qaydaları (CPM-in 63-cü mad)**

Bununla bağlı qeyd etmək lazımdır ki, cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyanın cinayət təqibi üzrə icraat qurtardıqdan sonra ödənilməsi qaydaları mülki mühakimə icraatı qaydasında "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə həyata keçirilir.

## 3.1. Prosessual qərarların icrasının məcburiliyi

**Prosessual qərarların icrasının məcburiliyi (CPM-in 64-cü mad)**

Cinayət prosesini həyata keçirən orqanın qüvvəyə minmiş qərarları, habelə göstərişləri, çağırışları və digər qanuni müraciətləri bütün dövlət orqanları, fiziki və hüquqi şəxslər üçün məcburidir və Azərbaycan Respublikasının ərazisində şərtsiz icra olunmalıdır.

**Prosessual qərar dedikdə** cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə hakimin və ya hakimlərin (hökmlər istisna edilməklə), habelə təhqiaqtçının, müstəntiqin, yaxud prokurorun cinayət-prosessual qanunvericilikdə nəzərdə tutumuş hallarda və qaydada qəbul etdiyi prosessual akt başa düşülür. Cinayət təqibi zamanı qəbul edilən prosessual qərarların məcmusu həyata keçirilən prosessual hərəkətlərlə birlikdə ümumilikdə, cinayət prosesinin özünü təşkil edir. Buna görə də, prosessual qərarlar cinayət prosesinin əsasını, mahiyyətini təşkil edir, onun zəruri keyfiyyət xüsusiyyətlərini özündə birləşdirir.

Cinayət-prosessual qanunvericilik prosessual qərarların, göstərişlərin, çağırışların və başqa müraciətlərin məcburiliyinin təmin edilməsinin şərtlərini müəyyənləşdirmişdir.

**Həmin şərtlər aşağıdakılardır:**

1) məhkəmə (hakim), təhqiqatçı, müstəntiq, yaxud prokuror prosessual qərarları, göstərişləri, çağırışları və başqa müraciətləri CPM-də nəzərdə tutulmuş hallarda qəbul etməlidir;

2) cinayət prosesini həyata keçirən orqanlar və vəzifəli şəxslər prosessual qərarlar, göstərişləri, çağırışları və başqa müraciətləri CPM-də nəzərdə tutulmuş qaydada qəbul etməlidirlər;

3) prosessual qərarlar, göstərişlər çağırışlar və başqa müraciətlər əsaslı və qanuni olmalıdır;

4) prosessual qərarlar qanuni qüvvəyə minməlidir (və bundan sonra onların icrasının məcburiliyi təimn olunmalıdır).

Cinayət prosesini həyata keçirən orqanın qərarlarının icra edilməməsi qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyətin əsasını təşkil edir.

Xarici dövlətlərin cinayət prosesini həyata keçirən orqanlarının qərarlarının məcburiliyi beynəlxalq müqavilələrə, eləcə də cinayət-prosessual və digər qanunvericiliyə uyğun müəyyən edilir.

**Prosessual qərarların preyudisial əhəmiyyəti (CPM-in 65-ci mad)**

CPM-nin 65-ci maddəsinə əsasən prosessual qərarların preyudisial əhəmiyyəti qeyd edilmişdir.

"Preyudisial" termini latın sözü olan "pracgudisialis" sözündən olub "əvvəlki məhkəmə qərarına nisbət", "əvvəlki məhkəmə qərarına münasibət" mənasında işlədilir.

Cinayət prosesini həyata keçirən orqanın ləğv edilməmiş qərarı həmin məsələ üzrə yeni qərar çıxarılmasına yol vermir. Cinayət prosesini həyata keçirən orqanın qərarı, şəxsin cinayət təqibini istisna edən qərarlardan başqa, hökmün və ya məhkəmənin digər yekun qərarının çıxarılması ilə əlaqədar məcburi qüvvəyə malik deyildir.

Aşağıdakı qərarlar cinayət prosesini həyata keçirən orqan üçün məcburi qüvvəyə malik deyildir və yeni hallar aşkar edilərsə və ya əvvəlki hallar aradan qalxarsa, onlara ləğv edilmədən yenidən baxıla bilər:

1) şəxslərin cinayət prosesinin iştirakçısı qismində tanınması və bu qismdə onların cinayət prosesində iştirakına xitam verilməsi haqqında;

2) qətimkan tədbirinin seçilməsi və ya digər prosessual məcburiyyət tədbirlərinin tətbiqi haqqında;

3) cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiə tədbirlərinin tətbiqi və onlara xitam verilməsi haqqında;

4) sübutların və cinayət təqibi üzrə icraatın digər materiallarının axtarılıb tapılması, əlavə edilməsi, tədqiqi məsələləri haqqında;

5) prosessual hərəkətlərin icraatının növbəliliyi və vaxtı haqqında.

Məhkəmə cinayət təqibinə xitam verilməsi haqqında təhqiqatçının, müstəntiqin və ya prokurorun qərarını məhkəmə nəzarəti funksiyalarını həyata keçirərkən ləğv edə bilər, məhkəmə baxışı nəticəsində isə, həmçinin xüsusi qərar çıxara bilər.

## N Ə T İ C Ə

Beləliklə, biz sizinlə 5 nömrəli mühazirəni dinləyib belə nəticəyə gəlirik ki, Azərbaycan Respublikasının hər bir vətəndaşı Konstitusiya ilə ona verilmiş hüquqa – yəni dövlət orqanlarının vəzifəli şəxslərinin qanunsuz hərəkətləri nəticəsində vurmuş olduqları zərərin ödənilməsini tələb etmək hüququna malikdir.

Bəraət qazanmış şəxsə ziyanın ödənilməsinin hüquqi nizama salınmasından, onun sosial-siyasi əhəmiyyətindən, ziyanın ödənilməsinin şərtlərindən və qaydasından bəhs edən sualda ziyanın ödənilməsi institutunun dərin mənəvi və siyasi köklərə bağlılığından danışıldı, onun əhəmiyyəti müdavimlərin nəzərinə çatdırıldı.

Mühazirədə vurulmuş ziyanın ödənilməsi hüququndan məhrum edilmə halları da göstərilmişdir:

1. Əgər təqsirləndirilən şəxs cinayət mühakiməsini həyata keçirən orqanlardan qaçıb gizlənmişsə.

2. Təqsirləndirilən şəxs istintaqa mane olaraq, dövlət orqanının yanılmasına cəhd etmişsə.

3. Təqsirləndirilən şəxs ona cinayət etməkdə şübhələndirmək üçün hər hansı formada olursa-olsun bəhanə gətirmişsə.

Göründüyü kimi, yuxarıda göstərilən əsaslar mövcud olarsa, vurulmuş ziyan ödənilmir və vətəndaş bu hüquqdan məhrum olur.

Dövlət tərəfindən bəraət almış şəxslərə vurulmuş mənəvi və maddi ziyanın ödənilməsi xidməti vəzifəsindən sui-istifadə edən və nöqsan buraxmış təhqiqat və ibtidai istintaq orqanları, prokurorluq və məhkəmənin üzərindən intizam məsuliyyətini götürmür. Həmin orqanların vəzifəli şəxsləri müvafiq intizam məsuliyyətinə cəlb olunurlar.